

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 18 may 2024-cü il №36 (2847) https://mod.gov.az Qiymәti 30 qəpik

## Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana dövlət səfəri

*Mayın 15-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Respublikasına dövlət səfərinə gəlib.*



Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonu Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Azərbaycan Respublikasına dövlət səfərinə gələn Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun mayın 16-da rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Belarus Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidenti İlham Əliyev Belarus Prezidenti Aleksandr Lukaşenkonu qarşılayıb.

Fəxri qarovul dəstəsinin rəisi Belarus Prezidentinə raport verib.

Belarus Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirilib.

Azərbaycan nümayəndə heyəti Belarus Prezidentinə, Belarus nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olunub.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Belarus Prezidenti Aleksandr Lukaşenkonun qarşısından keçib.

Dövlət başçıları rəsmi foto çəkdiriblər.

* * *

Mayın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə təkbətək və geniş tərkibdə görüşü keçirilib.

* * *

Mayın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun iştirakı ilə Azərbaycan-Belarus sənədlərinin imzalanması mərasimi olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev mətbuata bəyanatla çıxış edib.

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli Aleksandr Qriqoryeviç.

Hörmətli qonaqlar.

Əziz dostlar.

Bu gün biz Azərbaycana dövlət səfəri ilə gəlmiş əziz qonağı, böyük dostumuz Aleksandr Qriqoryeviç Lukaşenkonu qəbul edirik. Aparılan danışıqlar - təkbətək və geniş tərkibdə görüşlər ölkələrimizin mehriban dostlar olduğunu bir daha əyani şəkildə nümayiş etdirir. Bu gün münasibətlərimizin son illərdə inkişafını müfəssəl şəkildə təhlil etdik və bu münasibətlərin dinamik inkişafını məmnuniyyətlə qeyd etdik, həmçinin daha də mühüm olanı - gələcəkdə qarşılıqlı fəaliyyət yollarını müəyyənləşdirdik. Razılığa gəldik ki, yaxın vaxtlarda Minskdə keçiriləcək Hökumətlərarası Komissiyanın növbəti iclasına qədər müvafiq dövlət strukturlarına verilmiş tapşırıqlar müfəssəl şəkildə təhlil olunacaq və onların icra müddəti üzrə konkret addımlar, həmçinin qarşılıqlı iqtisadi-ticari əməkdaşlıq potensialını daha da artırmaq üçün həmin tapşırıqların verildiyi məsul şəxslər və strukturlar müəyyən ediləcək.

Mən məktub göndərmişəm, lakin bu gün bir daha Aleksandr Qriqoryeviçi noyabrda Bakıda keçiriləcək iqlim sammitində iştirak etməyə şəxsən dəvət etmişəm. Həmin vaxta qədər müvafiq tapşırıqlar verilib, biz onların yerinə yetirilməsi üzrə məruzələri dinləyəcəyik. Bu gün müzakirə etdiyimiz məsələlərin hamısı kifayət qədər konkret xarakter daşıyır. İlk növbədə, söhbət sənaye kooperasiyasından, Belarusda, Azərbaycanda birgə istehsalın təşkili və artıq bir çox illər öncə yaradılmış birgə istehsal potensialının artırılmasından gedir. Bu, ilk növbədə, maşınqayırmadır. Həmçinin hərbi-sənaye kompleksində, kənd təsərrüfatında, nəqliyyatda əlaqələrin inkişafı məsələləri, başqa sözlə desək, ölkələrimizin iqtisadiyyatının inkişafı üçün praktiki əhəmiyyət daşıyacaq məsələlər geniş şəkildə müzakirə olundu.

Belarus nümayəndə heyətinin üzvləri artıq dünəndən Bakıdadır və azərbaycanlı həmkarları ilə danışıqlar aparıblar. Bu, bir daha göstərir ki, hər iki tərəf Belarus Prezidentinin dövlət səfərinə məsuliyyətlə yanaşaraq, sonradan dövlət başçılarının təsdiqinə təqdim ediləcək bir çox məsələləri əvvəlcədən müzakirə edib və razılaşdırıblar. Zənnimcə, məhz əməkdaşlığın bu səmərəli forması daha düzgündür və konkret nəticəyə yönəlib. Beləliklə, əminəm ki, gələcəkdə, həm də çox uzaq olmayan gələcəkdə münasibətlərimizin yeni hüdudlarını, yeni müəssisələri, yeni iş yerlərini, həmçinin əməkdaşlığın yeni istiqamətlərini görəcəyik. Mən artıq bu barədə danışmışam, bir daha demək istəyirəm ki, Belarus şirkətlərini Qarabağ və Şərqi Zəngəzur bölgələrinin bərpasında fəal iştirak etməyə dəvət etmişəm. Hazırda gördüyümüz və həyata keçirəcəyimiz işlərin miqyası çox genişdir.

Demək olar ki, ərazini sıfırdan bərpa etmək lazım gəlir, müqayisə üçün deyim ki, Livanın bütün ərazisi, üstəgəl bütün bu ərazinin 50 faizi qədər sahəni. Bütün bunları, sadəcə, daşın daş üstündə qalmadığı ərazidə görüləcək işləri təsəvvür etmək üçün söylədim. İşğal illərində hər şey dağıdılıb. İnfrastrukturu, yaşayış sahələrini, ictimai binaları, tarixi abidələri və digərlərini sıfırdan bərpa etmək lazım gəlir. Ona görə də Belarus şirkətlərini bu prosesə fəal qoşulmağa dəvət edirik.

Bu gün, həmçinin konkret tapşırıqlar verilib. Belarusun çox yaxşı şəhərsalma təcrübəsi, müasir texnologiyaları, - bu barədə də danışdıq, - aqroşəhərciklərin tikintisi təcrübəsi var. Əlbəttə, bizim birinci dərəcəli vəzifəmiz keçmiş məcburi köçkünləri tikiləcək doğma evlərinə mümkün qədər tez qaytarmaqdır. Həmçinin onları müvafiq işlə təmin etmək lazımdır ki, azad olunmuş ərazilərə qayıdanlar da yüksək əməkhaqqı olan işlərdə çalışsınlar.

Biz bu gün, həmçinin, regionumuzda MDB məkanında təhlükəsizliklə bağlı məsələləri müzakirə etdik. Mən Aleksandr Qriqoryeviçə Cənubi Qafqaz regionunda postmünaqişə şəraiti haqqında məlumat verdim. Təbii ki, dünya siyasətinin aktual məsələləri üzrə də fikir mübadiləsi apardıq. Dünyada vəziyyət sürətlə və bir qayda olaraq mənfi istiqamətdə dəyişir. Yeni münaqişələr, yeni qeyri-sabitlik ocaqları yaranır. Təəssüf ki, bir qayda olaraq mövcud münaqişələr öz həllini tapmır. Cənubi Qafqazda Azərbaycanın beynəlxalq hüquqa, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, BMT-nin Nizamnaməsinə və bütün dünya ictimaiyyətinin bu gün tanıdığı beynəlxalq humanitar hüquqa tam uyğun olaraq hərbi-siyasi yolla həll etdiyi münaqişə istisna olmaqla.

Əlbəttə ki, diskussiyalar üçün mövzu olduqca çoxdur. Biz Aleksandr Qriqoryeviçlə artıq son 20 ildə fəal işləyirik. Bu illər ərzində müxtəlif şəraitlərdə həmişə dəyərlərimizə - xeyirxahlığa, ləyaqətə, münasibətlərdə dürüstlüyə və nəticəyə hədəflənməyə sadiqliyimizi qoruyub saxlamışıq. Düşünürəm ki, ölkələrimizin rəhbərləri arasında etimada əsaslanan münasibətlər təbii olaraq bütün digər dövlət qulluqçularına impuls verir ki, onlar, həmçinin öz aralarında ünsiyyət saxlasınlar, çalışsınlar, dostluq etsinlər, öz ölkələrinin rifahı və ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi naminə fəaliyyət göstərsinlər. Zənnimcə, bu gün bu münasibətlərin dostluq xarakteri daşıması əyani şəkildə nümayiş etdirilir.

Aleksandr Qriqoryeviç, bir daha minnətdarlıq hissi ilə demək istəyirəm ki, Sizin səfərinizi dostluq və hörmət əlaməti kimi qəbul edirəm. Ötən illərdə biz bir neçə qarşılıqlı - rəsmi və işgüzar səfərlər etmişik. Amma dövlət səfəri həm forma, həm də məzmun etibarilə həmişə fərqlidir. Sizi salamlamağıma şadam. Sizə və dost, qardaş Belarus xalqına yeni uğurlar və qələbələr arzulayıram. Sağ olun.

* * *

Sonra Belarus Prezidenti Aleksandr Lukaşenko bəyanatla çıxış edib.

### Prezident Aleksandr Lukaşenkonun bəyanatı

- İlham Heydər oğlu, Belarus xalqının və mənim ünvanıma söylədiyiniz xoş sözlərə görə çox sağ olun. Biz bunu qiymətləndiririk.

**(Ardı 2-ci səhifədə)**

# Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana dövlət səfəri



(Əvvəli 1-ci səhifədə)

Geniş tərkibdə danışıqlarımızın əvvəlində söylədim ki, Azərbaycan son illər böyük nailiyyətlər əldə edib. Hər şeydən əvvəl özünün əsas problemini - uzun müddət səhraya çevrilmiş torpaqların qaytarılmasını həll edib. İlham Heydər oğlu deyir ki, bu torpaqları dirçəltmək, hansısa yeniliklər etmək lazımdır. Amma orada vəziyyət hələ pisdir, dirçəlişdən əvvəl bir çox şeyləri təmizləmək lazımdır. Bu, az iş deyil. Çünki bu, keçmişin ağır fəsadlarıdır, amma torpaqlar qaytarılıb və onları dirçəltmək lazımdır. Bu, Azərbaycanın həll edəcəyi daha uzunmüddətli ağır problem və vəzifədir.

Mən hələ müharibədən əvvəl İlham Heydər oğlu ilə bu problemi müzakirə etdiyimiz vaxtları xatırlatdım. Həmin vaxt o mənə deyirdi ki, qarşıda insanları qaytarmağın lazım olacağı çox ağır dövr durur. Siz çox düzgün kurs götürmüsünüz. İnsanları qaytarmaq azdır, onları yaxşı, rahat evlərdə yerləşdirmək lazımdır, çünki bir çoxları artıq şəhərlərdə anadan olublar. Amma bu da azdır. Yeni iş yerləri yaratmaq lazımdır. Mən ilk dəfə belə bir həcm barədə eşitdim ki, bu, Livanın bütün ərazisi, üstəgəl bütün bu ərazinin 50 faizi qədər sahədir. İlham Heydər oğlu, bu torpaqları dirçəltmək üçün hələ uşaqlar da çox iş görməli olacaqlar.

Mən bunu ona görə söylədim ki, biz sizə qardaş və çox dost ölkəyik, təkcə İlham Heydər oğlu ilə köhnə dostlar deyilik, bizim Heydər Əliyev ilə də yaxşı münasibətlərimiz var idi. Uzun müddət olmasa da, onunla çox səmimi şəkildə çalışırdıq. Mən hələ sovet dövründə bu insana böyük hörmət bəsləyirdim. İlham Heydər oğluna tez-tez deyirəm ki, təbiət nadir hallarda övlada atanın istedadını bəxş edir. Siz çox işlər görmüsünüz. Bu gün ona birbaşa dedim ki, siz cənnətdə yaşayırsınız. Sizin təbiətiniz cənnətdir. Torpaqlarınızı qaytarmağınız və onu dirçəltməyiniz əsrlər boyu, uzun illər yaddaşlarda qalacaq. Bütün bunları ona görə deyirəm ki, əgər həmin torpaqların dirçəldilməsi üzrə bu böyük prosesdə bizə yer tapılarsa, onda bu yükün altına girməyə hazırıq və bu, sizin üçün sərfəli olacaq. Məsuliyyətlə



bildirirəm ki, biz bunu böyük məmnuniyyətlə və dünyada heç kimin edə bilməyəcəyi səviyyədə edəcəyik. Çünki Belarusun və Azərbaycanın qardaş xalqları arasında dərin hörmət və münasibətlər var. Azərbaycan Prezidentinin əvvəldə söylədiyi sözlərə diqqət yetirmənizi xahiş edirəm. Bizim irəlilədiyimiz və təxminən 400 milyon dollar əmtəə dövriyyəsinə çatdırdığımız bir yol xəritəmiz var. Razılığa gəlmişik ki, bu yol xəritəsi Hökumətlərarası Komissiyanın Minskdə keçiriləcək növbəti iclasında bugünkü razılaşmalar və nazirlərimizin burada iki gün ərzində çalışdıqları, hələ üzərində işləyəcəkləri məsələlər nəzərə alınmaqla aktuallaşdırılacaq. Bəzi məsələlər artıq köhnəlib, yeni problemlər meydana çıxır. Bütün bunlar həmin planda öz əksini tapacaq. Burada iqlim üzrə beynəlxalq konfrans keçirildikdə, çox güman ki, mən orada iştirak edəcəyəm, bunu planlaşdırıram. Biz İlham Heydər oğlu ilə daha məhdud tərkibdə və yenidən görüşəcəyik. Görüşdə Hökumətlərarası Komissiyamızın həmsədrləri bu xəritənin nədən ibarət olması, hansı işlərin görüldüyü barədə məruzə edəcəklər. Biz nazirlərin xəritəni tərtib etmələrini gözləməyəcəyik, bu işə yeni ildən başlayacağıq. Hansısa məsələlər üzrə belə də olacaq. Amma bir sıra məsələlər var ki, onları işləyib hazırlamaq deyil, sabahdan başlamaq lazımdır. Biz kompleks mineral gübrələrin birgə istehsalı üzrə razılaşdıq. Burada gecikməyin mənası yoxdur. Kompleks qarışıq gübrələr istehsal etmək və Azərbaycanın hər hansı gübrə ilə bağlı xahiş etməməsi üçün daxili bazardan başlamaq, onu burada istehsal etmək lazımdır. Bizim texnologiyalarımız var, bunu həyata keçirməyə və bütün regionu təmin etməyə hazırıq. Region isə çox böyükdür - İran, Pakistan, Hindistan. Onlar böyük miqdarda mineral gübrələr tələb edir. Biz onlara kompleks şəkildə gübrə təklif edəcəyik. Ona görə də məsələ bu cürdür - artıq həll etməyə başlamaq və noyabra qədər irəli getmək lazımdır. Qarşıya bu cür vəzifələr qoyulub.

Biz bütün məsələləri müzakirə etdik. Bağlı mövzular olmadı. Bu, təkcə texnika və MT3 deyil, MAZ texnikasının birgə istehsalı, yanğınsöndürən texnikasının birgə istehsalı, lift avadanlığının, xüsusən sovet binalarında dəyişdirilməli olan köhnə liftlərin hissələrinin birgə istehsalıdır. Biz azərbaycanlı dostlarımızla bu texnikanı birgə istehsal etməyə hazırıq. Prezident xahiş etdi ki, biz dəmir yolu hərəkət texnikasının - həm platformaların, həm də çənlərin istehsalına diqqət yetirək. Bizim yaxşı təcrübəmiz var. Bunları istehsal edən şirkətlərimiz, zavodlarımız mövcuddur. Bu texnikanın burada birgə istehsalını təşkil etməyə hazırıq. Kənd təsərrüfatında buraya cins mal-qara, hər şeydən əvvəl, süd məhsullarına, iribuynuzlu mal-qara ətinə tələbatı tam təmin etmək üçün tədarüklə





bağlı böyük proqramlarımız var. Biz bu mal-qaranı sizə tədarük edəcəyik. Bundan başqa, Sizin azad etdiyiniz ərazilərdə xüsusən aqrar torpaqlarda Belarus təcrübəsi üzrə aqroşəhərciklər və bütün infrastrukturu yaratmağa, iş yerləri açmağa, yeni, komplekslər tikməyə, həmçinin fermer təsərrüfatları yaratmağa hazırıq. Venesueladan başlayaraq, bizim belə bir təcrübəmiz var. Amma bura Venesuela deyil, yaxındır, eyni dildə danışırıq, bir-birimizi başa düşürük. Ona görə də həmin torpaqlarda sizin üçün, ilk növbədə, iş yerləri olan aqroşəhərcik tikəcəyik. Baxarsınız, sizə uyğun olarsa, biz onların sayını artıracağıq. Belə ki, bu gün Prezidentə bizim böyük sərvətimizin - meşələrimizin olduğunu söylədim. Bizdə o qədər taxtaşalban var ki... Bu, Azərbaycanda qıtdır. Bu məsələdə təbiət bizi mükafatlandırıb. Biz orada sizin üçün evlər yaratmağa hazırıq. Belarusda taxta evlər təcrübəsi geniş yayılıb. Evi hissələrlə vaqonlarda gətiririk, bir həftə ərzində bünövrəsi üzərində tikib qurtarırıq. Biz Belarusda bu cür edirik. Əgər sizə uyğun gələrsə, biz tədarük edə və sizin dirçəldilən ərazilərdə belə evlər tikə bilərik. Bir sözlə, çox böyük planımız var. Biz işləməyə davam edəcəyik.

Əczaçılığa, dərmanlara gəldikdə isə biz lap elə sabahdan sizin çox ehtiyac duyduğunuz dərmanları tədarük etməyə və burada Belarus texnologiyası əsasında dərman və preparatlar üçün birgə istehsalat qurmağa hazırıq. Bu da çox böyük proqramdır və Azərbaycanda heç kimə işləməyə mane olmur. Biz burada heç kimlə ziddiyyət yaratmırıq, hətta heç kimlə rəqabət də aparmırıq. Halbuki rəqabət olmalıdır.

Bir sözlə, çox iş görə bilərik. Həm humanitar sahədə, həm də idmanda. Siz ölkədə MDB Oyunlarını qəbul edəcəksiniz. Biz də qoşulacağıq, həm də axı bu Oyunları biz Sizinlə birgə xilas etmişik. Əgər Belarus və Azərbaycan olmasaydı, yəqin ki, bu Oyunlar artıq süquta uğrayardı. Biz onu xilas etdik. Ötən Oyunlar bizim ölkədə keçirildi, bu dəfə isə estafeti siz bizdən qəbul etdiniz. Bir vaxtlar Avropa Oyunlarının estafetini də biz sizdən qəbul etmişdik. Ona görə də, təcrübəmiz böyükdür. Sizinlə idman, səhiyyə, təhsil, o cümlədən, əvvəllər TPM adlandırdığımız texniki peşə məktəblərimizin təcrübəsi sahəsində əməkdaşlıq edəcəyik. Biz burada texniki peşə təhsili verən obyektlərin təşəkkül tapmasına və yeni əsaslarla yaradılmasına kömək etməyə hazırıq. Bizim bu sahədə təcrübəmiz böyükdür. Həm də biz onları sovet vaxtından bəri qoruyub saxlamışıq. Bu gün isə peşə ixtisaslarına həm bizim ölkədə, həm Rusiyada, həm digər MBD ölkələrində, həm də Azərbaycanda böyük tələbat var. İlham Heydər oğlu bu işlə məşğul olmağımızı bizdən xahiş edib. Biz də sizin mütəxəssislərlə birlikdə bu işi mütləq birlikdə həyata keçirəcəyik.

Bəli, biz regionlarımızda təhlükəsizlik məsələlərini müzakirə etmişik. İlham Heydər oğlu burada baş verənlərlə bağlı mənə ətraflı məlumat verdi, qeyri-sabit regiondur, Tanrıya şükür olsun ki, burada Azərbaycanın timsalında olduqca güclü, normal lider ölkə mövcuddur. Siz Qafqaz regionunu nəzarətdə saxlamağa qadirsiniz. Bu, artıq təkcə Azərbaycana görə məsuliyyət daşımaq demək deyil, Siz artıq bütün Qafqazdakı vəziyyətə cavabdehsiniz, biz - Qafqazda yaşamayan xalqlar buna çox böyük ümid bəsləyirik. Ona görə də bu, sizin üçün əlavə yük deməkdir, halbuki öz problemləriniz də var, lakin yenə də, nə etmək olar. Zaman Sizi seçib, bizdə belə deyirlər və Siz lider olaraq Qafqaz regionuna görə məsuliyyət daşıyırsınız.

(Ardı 3-cü səhifədə)

# Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana dövlət səfəri



(Əvvəli 2-ci səhifədə)

Mən bizim regionda Ukraynadakı münaqişə ilə bağlı nə baş verdiyi barədə məlumat verdim. Həm də ətraflı şəkildə. Bununla bağlı qiymətləndirmələrimiz, baxış bucaqlarımız həm yaxındır, həm də üst-üstə düşür. Bizim mövqeyimizi Siz bilirsiniz. Bizə indi orada heç də asan deyil, ancaq biz orada sülh olması üçün əlimizdən gələni edəcəyik. Biz bu istiqamətdə hərəkət edəcəyik. Bu məsələdə Azərbaycanın müharibədən sonrakı quruculuqla, sülh quruculuğu ilə bağlı təcrübəsi bizim region üçün də çox vacibdir. Biz bir-birimizlə etimad əsasında söhbət edirik. Bizim nə şəxsi, nə də dövlətlərarası planda gizli sirrimiz yoxdur. Bu isə ölkələrimizin nazirlərinin də artıq bu notlar üzərində danışmağa başlamasına və danışmasına xidmət edir. Buna görə də, mən şəxsən burada səfərdə olan hökumət nümayəndələrimizdən bu ölkədən azərbaycanlı tərəfdaşları ilə quracaqları əməkdaşlıq proqramı ilə ayrılacaqlarını gözləyirəm. Xoşagələn hal odur ki, ticarət dövriyyəmiz 400 milyona yaxındır və bu gün artıq azərbaycanlı nazirlərin təşəbbüsü ilə bu rəqəmi 1 milyarda çatdırmaq niyyətindəyik. Bu, çox böyük addım olacaq. Ola bilsin ki, biz bunu iki mərhələdə həyata keçirəcəyik. Əvvəlcə ticarət dövriyyəmizin 500 milyona çatdırılmasına, il ərzində isə digər yarısını əldə etməyə müvəffəq olarıq. Müəyyən vaxtdan sonra biz bu rəqəmi 1 milyarda çatdıracağıq. Bunun üçün əlimizdən gələni edəcəyik. Əgər məsələn, Azərbaycanda da istehsal edilən məhsulu dost olmayan ölkələrdən satın alırıqsa, biz heç nəyə baxmayaraq dərhal ondan imtina etməli və buradan almalıyıq. Eynilə, Azərbaycan da bizə qarşı bu cür addım atacaq. İlham Heydər oğlu, mən Sizi Belarusa dəvət edirəm.

Prezident **İlham Əliyev**: Sağ olun.

Prezident **Aleksandr Lukaşenko**: Noyabrda Sizin ölkəyə gələcəyəm, müzakirə edərik, Siz də Belarusa səfər edəcəksiniz. Bir-birimizin ölkəsinə tez-tez səfər etməyimizə baxmayaraq, danışdığımız kimi, Sizin bizim ölkəyə səfərinizi hazırlayacaq Baş nazirinizi respublikamızda görməyə şad olacağıq. Ən başlıcası isə dost kimi və mənim şəxsən dostum kimi Sizə və qardaş Azərbaycan xalqına bu ağır dirçəliş dövrünü itkilərsiz başa vurmağı və qarşınıza qoyduğunuz planları yerinə yetirməyi arzu edirəm. Əminəm ki, Siz bunu edəcəksiniz, həm də istərdim ki, tez edəsiniz, Siz bunu bacarırsınız. Siz bütün dünyaya göstərdiniz ki, Sizdən əvvəlki nəsillərin dövründə həll olunmayan ən mürəkkəb məsələləri həll etməyi bacarırsınız. Sizə xoşbəxtlik və uğur arzulayıram.

Prezident **İlham Əliyev**: Sağ olun.



* * *

Mayın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Bakı Ekspo Mərkəzində XVII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - "Caspian Agro" və XXIX Azərbaycan Beynəlxalq Qida Sənayesi - "InterFood Azerbaijan" sərgiləri ilə tanış olublar.

* * *

Azərbaycanda dövlət səfərində olan Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mayın 16-da Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib.

Belarus Prezidenti Ulu Öndər Heydər Əliyevin məzarı önünə əklil qoyub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

* * *

Azərbaycan Respublikasında dövlət səfərində olan Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mayın 16-da Şəhidlər xiyabanını ziyarət edib.

Prezident Aleksandr Lukaşenko Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.



* * *

Mayın 16-da Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun şərəfinə dövlət ziyafəti verilib.

Ziyafətdə Azərbaycan və Belarus musiqiçilərindən ibarət konsert proqramı təqdim olunub.



* * *

Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Füzuli və Şuşa şəhərlərinə səfər ediblər.

Səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Füzuli şəhərinin dağıdılmış yerlərinə baxıb və şəhərin Baş planı ilə tanış olublar.

Dövlət başçıları Şuşada birinci yaşayış kompleksində olublar. Şuşada Azərbaycan ilə Belarusun birgə istehsalı olan avtobusa və Belarus Prezidentinin hədiyyə etdiyi traktorlara baxıblar. Şuşada Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin işğal dövründə ermənilər tərəfindən güllələbaran edilmiş heykəllərinə, Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yaradıcılıq Mərkəzində "Heydər Əliyev və Qarabağ" sərgisinə baxıblar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkoya Şuşanın Baş planı barədə məlumat verilib. Sonra Bülbülün ev-muzeyində və Cıdır düzündə olublar.

**AZƏRTAC-ın materialları əsasında**

# "Anadolu Ankası-2024" təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü" keçirilib



Türkiyə Respublikasının Konya şəhərində "Anadolu Ankası-2024" ("Anatolian Phoenix-2024") beynəlxalq axtarış-xilasetmə təlimində "Yüksək Səviyyəli Müşahidəçi Günü" keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə Azərbaycan Hərbi Hava Qüvvələrinin, Hərbi Dəniz Qüvvələrinin və Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı hərbi attaşelik aparatının nümayəndələri iştirak ediblər.

Əvvəlcə iştirakçılara təlimin gedişatı, qarşıda duran tapşırıqların məqsədi və yerinə yetirilməsi barədə statistik məlumatlar, eləcə də beynəlxalq təlimə həsr olunmuş qısametrajlı videogörüntü təqdim olunub.

Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra təlim poliqonunda "Anadolu Ankası-2024" beynəlxalq axtarış-xilasetmə təliminə cəlb edilən iştirakçılar tərəfindən müxtəlif epizodların praktiki icrası media nümayəndələri və qonaqlar tərəfindən maraqla izlənilib.



# Xocalıda Rusiya Federasiyası sülhməramlı kontingentinin missiyasının başa çatmasına həsr olunmuş təntənəli mərasim keçirildi





2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin döyüş əmri ilə İkinci Qarabağ müharibəsi - Azərbaycanın ədalətli müharibəsi başladı. Azərbaycan Ordusu düşmənin işğal müddətində yaratdığı, möhkəmləndirdiyi istehkam sədlərini dağıdaraq irəlilədi, ilkin mövqe qələbələri qazandı. Hər qələbə sonrakı döyüşün başlanğıcı olurdu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xalqa müraciətində dedi: "Onlar gördülər ki, dünyada heç bir qüvvə bizi haqq yolundan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz... Biz haqq yolundayıq. Biz qalib gəlirik. Biz Zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik".

Şuşa noyabrın 8-də işğaldan azad edildi. Bu, müharibənin sonu oldu. Noyabrın 10-da üçtərəfli Bəyanat imzalandı. Bəyanatın şərtlərinə əsasən, Rusiya silahlı qüvvələrinin bölgədə yerləşdirilən sülhməramlı kontingenti missiyasını 2025-ci ilə kimi davam etdirəcəkdi. Rusiya ilə Azərbaycan arasında razılaşmaya əsasən, sülhməramlı kontingentin missiyası nəzərdə tutulan müddətdən tez başa çatdı. Mayın 15-də Xocalı hava limanında Rusiya Federasiyası sülhməramlı kontingentinin missiyasının başa çatmasına həsr olunmuş təntənəli mərasim keçirildi...



Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, Rusiya Federasiyası Müdafiə Nazirliyinin, sülhməramlı kontingentinin, Azərbaycan Respublikasındakı səfirliyinin rəsmi nümayəndələrinin, hərbi qulluqçuların, media nümayəndələrinin iştirak etdiyi tədbirdə qonaqlar sülhməramlı kontingentin Qarabağ iqtisadi rayonunun ərazisində fəaliyyətini əks etdirən fotosərgi ilə tanış oldular...

Sonra Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin çıxışı tədbirin mahiyyəti kimi dinlənildi.

Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev çıxışında dedi: "...Missiya müddətində sülhməramlı kontingent üzərinə düşən tapşırıq və vəzifələri yerinə yetirmiş, Qarabağ iqtisadi rayonu ərazisində sülhün və sabitliyin təmin olunması üçün səylərini əsirgəməmişdir. Qeyri-qanuni erməni silahlı birləşmələrinin mülki əhaliyə qarşı davam edən təxribatlarının qarşısının alınması və Qarabağ iqtisadi rayonu üzərində Azərbaycan Respublikasının tam nəzarətinin bərqərar edilməsi məqsədilə 2023-cü ilin sentyabrında lokal xarakterli antiterror tədbirləri keçirilmişdir. Bu tədbirlər nəticəsində separatçı rejimin fəaliyyətinə son qoyuldu, Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı birləşmələri ölkə ərazisindən tam çıxarıldı. Yaranmış vəziyyət nəzərə alınaraq ölkələrimizin ali rəhbərliyi tərəfindən Rusiya Federasiyasının sülhməramlı kontingentinin missiyasının vaxtından əvvəl dayandırılması barədə qərar qəbul edildi".



Baş Qərargah rəisi sülhməramlı kontingentin komandanlığına Qarabağ iqtisadi rayonunda sülhün və sabitliyin rifahı naminə cəsarətli xidmətə görə minnətdarlığını bildirdi.

General-polkovnik Yevgeni Nikiforov çıxışında Qarabağ iqtisadi rayonunda müvəqqəti yerləşdirilmiş Rusiya Federasiyası sülhməramlı kontingentinin fəaliyyətindən danışdı, Rusiya Federasiyasının müdafiə nazirinin, Baş Qərargah rəisinin və öz adından Rusiya sülhməramlı kontingentinin hərbi qulluqçularına hərbi vəzifələrini layiqincə yerinə yetirdiyinə, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi rəhbərliyinə isə səmərəli birgə əməkdaşlığa və əldə edilmiş anlayışa görə dərin minnətdarlığını bildirdi.

Azərbaycan və Rusiya müdafiə nazirlərinin əmrləri ilə təltif olunan hərbi qulluqçulara medallar təqdim olundu, rəsmi qonaqlar arasında hədiyyə mübadiləsi oldu.

Tədbirin sonunda Azərbaycan və Rusiya Müdafiə nazirliklərinin yaradıcı kollektivlərinin iştirakı ilə konsert proqramı təqdim edildi.

**Mayor**
**Məhəmməd NƏSİRLİ**
**"Azərbaycan Ordusu"**



## Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi artilleriya bölmələrinin taktiki təlimini izləyib





*Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev artilleriya bölmələri ilə keçirilən nümayiş döyüş atışlı taktiki təlimi izləyib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, general-polkovnik Kərim Vəliyev səhra məntəqəsinə gələrək tapşırıqların icrası zamanı komandir və qərargah zabitlərinin xəritə üzərində qəbul edilən qərarlara dair məruzələrini dinləyib.

Bildirilib ki, həyəcan siqnalı ilə daimi dislokasiya məntəqələrindən cəmləşmə rayonlarına çıxarılan bölmələr atəş mövqelərinin tutulması, döyüş texnikası və artilleriya qurğularının döyüş vəziyyətinə gətirilməsi üzrə fəaliyyətləri məşq ediblər.

Qeyd olunub ki, praktiki atışların icrası zamanı təyin edilmiş hədəflər yüksək dəqiqliklə məhv edilib.

General-polkovnik Kərim Vəliyev təlimin gedişatını müsbət qiymətləndirib, bölmələrin döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılması, hərbi qulluqçuların praktiki vərdişlərinin inkişaf etdirilməsi məqsədilə keçirilən təlim və məşqlərin intensivliyinin, keyfiyyətinin daha da artırılması ilə bağlı aidiyyəti şəxslərə tapşırıqlar verib.

# Baş direktor "IDEB 2024" sərgisində iştirak edir

*Azərbaycan Respublikasının müdafiə nazirinin müavini - Baş direktor cənab Aqil Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti Slovakiyanın Bratislava şəhərində keçirilən "IDEB 2024" beynəlxalq sərgisində iştirak edir.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, sərgidə cənab Aqil Qurbanov Slovakiya Respublikasının Baş nazirinin müavini və müdafiə naziri cənab Robert Kalinak ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Slovakiya arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlığa, eləcə də qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

## Artilleriya bölmələri ilə döyüş atışlı taktiki təlim keçirilir

Quru Qoşunlarının 2024-cü il üçün hazırlıq planına əsasən, artilleriya bölmələri ilə döyüş atışlı taktiki təlim keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimin planına uyğun olaraq, daimi dislokasiya məntəqələrindən cəmləşmə rayonlarına çıxarılan bölmələr atəş mövqelərinin tutulması, qurğuların döyüş tətbiqinə hazırlanması üzrə tapşırıqları yerinə yetiriblər.

Həmçinin silahlanmada olan universal radiolokasiya komplekslərindən və pilotsuz uçuş aparatlarından istifadə etməklə şərti düşmən fəaliyyətinin izlənilməsi, ona məxsus artilleriya vasitələri ilə mübarizənin aparılması, eləcə də hava kəşfiyyat cihazlarının aşkar edilərək xüsusi texniki vasitələrlə endirilməsi üzrə tapşırıqlar da müvəffəqiyyətlə icra olunub.

Təlimin keçirilməsində əsas diqqət hərbi qulluqçuların bilik və bacarıqlarının artırılmasına, komandir heyətinin artilleriya bölmələrinin idarəedilməsi vərdişlərinin təkmilləşdirilməsinə, döyüş əməliyyatları zamanı digər qoşun növləri ilə qarşılıqlı əlaqənin təşkilinə yönəldilib.



# Azərbaycan və Özbəkistan nümayəndələrinin işçi görüşü keçirildi







*Özbəkistan Müdafiə Nazirliyinin İdeoloji və Tərbiyəvi İş üzrə Baş İdarəsinin nümayəndə heyəti Azərbaycana işgüzar səfər etdi.*

Səfər çərçivəsində Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Özbəkistan Respublikası Müdafiə Nazirliyi arasında 2024-cü il üçün imzalanmış ikitərəfli əməkdaşlıq planı"na əsasən, hər iki ölkənin hərbi mütəxəssisləri arasında işçi görüşü keçirildi.

Görüşdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Özbəkistanlı qonaqlara Müdafiə Nazirliyinin Şəxsi Heyət baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin zabitləri tərəfindən Azərbaycan Ordusunda ideoloji işin təşkili və hərbi psixoloqların hazırlığı istiqamətində görülən işlərdən danışıldı.

Sonra Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi polkovnik Elşad Əbilov qonaqları salamlayaraq qeyd etdi ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış şanlı Qələbəni təmin edən amillərdən birinin də məhz ordumuzun şəxsi heyətinin ideoloji və mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə olmasıdır, xalq-dövlət-ordu birliyinin gücüdür. "Ordumuzun şəxsi heyəti ruh yüksəkliyi ilə 30 ilə yaxın erməni hərbi birləşmələrinin işğalında qalmış torpaqlarımızı azad etdi. Azərbaycan Ordusu ermənı faşizmini darmadağın edərək, respublikamızın suverenliyi və ərazi bütövlüyünə tam nail oldu. Döyüşçülərimiz Qələbə naminə yüksək döyüş qabiliyyətlərini göstərdilər".

İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin zabitləri - polkovnik Mehman Kərimov, polkovnik Qabil Talıbov, polkovnik Elvin Əzizov, polkovnik-leytenant Kamran Nəsibov Azərbaycan Ordusunda ideoloji işin təşkili və hərbi psixoloqların hazırlığı istiqamətində görülən işləri, şəxsi heyətin mənəvi-psixoloji hazırlığında əsas amilləri və prinsipləri diqqətə çatdırdılar. Təcrübə mübadiləsi baxımından belə görüşlərin və qarşılıqlı səfərlərin təşkilinin əhəmiyyətini xüsusi olaraq qeyd etdilər.

Özbəkistan Müdafiə Nazirliyinin nümayəndə heyətinə İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin əsas fəaliyyət istiqamətlərinə dair brifinq və rəşadətli ordumuzun Böyük Qələbəsinə həsr olunmuş sənədli film təqdim olundu.

Qonaqlar Azərbaycan Ordusunda ideoloji işin və mənəvi-psixoloji hazırlığın təşkili barədə rəhbər sənədlərlə, ədəbiyyatlarla, müxtəlif dərs vəsaitləri ilə tanış oldular.

Daha sonra Özbəkistan Müdafiə Nazirliyinin İdeoloji və Tərbiyəvi İş üzrə Baş İdarəsinin rəisi polkovnik Həsən Xəlilov belə işçi görüşlərin keçirilməsinin, qarşılıqlı təcrübə mübadiləsinin vacibliyini qeyd edərək, mövzunu əhatə edən geniş məlumatları diqqətə çatdıran həmkarlarına minnətdarlığını bildirdi.

Sonda qarşılıqlı hədiyyələr təqdim edildi.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**



# Gənc zabitlərin püşkatması keçirildi

Müdafiə Nazirliyinin müxtəlif qoşun növlərində müvafiq ixtisaslar üzrə zabit qismində xidmət etmək arzusunda olan ali təhsilli gənclər üçün təşkil olunmuş "Ehtiyat zabit hazırlığı kursu" başa çatdı. Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində keçirilən tədbirdə kursu müvəffəqiyyətlə bitirənlərə müdafiə nazirinin müvafiq əmrinə əsasən, "leytenant" hərbi rütbəsi verildi. Gənc zabitlərin hərbi hissələrə təyinatı püşkatma yolu ilə həyata keçirildi. Yaxın günlərdə təyin olunduqları xidmət yerlərinə yola düşəcək gənc zabitlər yiyələndikləri ixtisaslar üzrə Azərbaycan Ordusunun birlik və birləşmələrində xidmət edəcəklər.

Püşkatma başa çatdıqdan sonra polkovnik Mehman Kərimov gənc zabitləri hərbi xidmətə başlamaları münasibətilə təbrik etdi. Xidmət yerindən, tutduğu vəzifəsindən asılı olmayaraq, həmişə işində məsuliyyətli olmalarını tövsiyə etdi. Düşmən işğalından azad edilmiş ərazilərdə, Ermənistanla dövlət sərhədində yerləşən hərbi hissələrdə xidmət edəcək zabitlərin daha diqqətli olmalarını xüsusi vurğuladı. Çünki həmin ərazilərdə gərgin döyüşlər gedib və düşmənin basdırdığı minalar tam zərərsizləşdirilmədiyi üçün hələ də təhlükəlidir.



Sonda polkovnik Mehman Kərimov bir daha gənc zabitlərə hərbi xidməti nizamnamələr əsasında qurmaqla, tabeliyində olan şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığını artırmaq yolunda uğurlar dilədi.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# “Heydər Əliyev - 101: Liderin Tarixi, Tarixin Lideri”

Hər bir xalqın görkəmli şəxsiyyətləri xalqın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirir, xalqı tanıdır, özü də tanınır. Azərbaycan tarixinin ən çətin və keşməkeşli dönəmində Vətənimizin və xalqımızın nicatı, qurtuluşu, xoşbəxt gələcəyi və dövlətimizin qurtuluşu naminə xalqın dəvəti ilə yenidən hakimiyyətə qayıtmış Ulu Öndər Heydər Əliyev məhz belə dahi tarixi şəxsiyyətlərdəndir.

10 may 1923-cü il. Təqvimdə adi günlərdən biri olsa da, övladı dünyaya gəlmiş Əliyevlər ailəsi üçün əsl bayram idi. Adını Heydər qoydular. İllər ötdü, balaca Heydər böyüdü, fərqlənmə diplomu ilə ali təhsil aldı, Milli Təhlükəsizlik xidmətinin zabiti oldu, Azərbaycan Respublikası Kommunist Partiyasının birinci katibi olaraq ölkəmizə rəhbərlik etdi. Daha sonra SSRİ baş nazirinin müavini olaraq, yenə də Azərbaycanın çiçəklənməsi naminə çalışdı. Ölkəmiz müstəqilliyini yenidən bərpa etdikdən sonra yenidən Vətənə döndü və xalqımızın ən taleyüklü məqamlarında onun yanında oldu. Ulu Öndər əzmlə, qətiyyətlə və müsbət şəxsi keyfiyyətləri sayəsində daima uğur qazandı, irəli getdi, yüksəldi. O, dahi şəxsiyyət oldu, qurtuluş gününün banisi oldu, respublikamızda dayanıqlı inkişafın, müasir Azərbaycan dövlətinin və qüdrətli ordusunun təməlini qoydu, müstəqilliyimizi qorudu, daimi, dönməz, əbədi etdi və nəhayət, xalqın qəlbində əbədiyaşar komandan, Ümummilli Lider Heydər Əliyev oldu. Artıq onun anadan olduğu gündən 101 il ötür. Bu gün artıq 10 may təkcə Əliyevlər ailəsinin deyil, vətənsevər, qədirbilən bütün Azərbaycan xalqının bayramıdır.

Dahi şəxsiyyət, böyük dövlət xadimi, dünya miqyaslı siyasətçi Heydər Əlirza oğlu Əliyevlə şəxsən görüşmək xoşbəxtliyi mənə bir neçə dəfə nəsib olub. Onun barəsində xoş sözlər yazmaq, haqqında fikirlərimi, təəssüratlarımı bölüşmək mənim üçün bir vətəndaşlıq borcu, həm də böyük insan, dünya miqyaslı dövlət xadiminə, onun həyat və yaradıcılığına hörmət və ehtiramımın göstəricisidir.

İlk olaraq onu demək istərdim ki, Heydər Əliyev irsi elə bir zəngin xəzinədir ki, oradan hər kəs özü üçün faydalana bilər. Onun dövlət idarəçilik bacarığı, diplomatik gedişləri, çətin anlarda vəziyyəti düzgün qiymətləndirərək çıxış yolları tapmaq məharəti, insanlarla ünsiyyət qurmaq bacarığı, yüksək biliyi, savadı və sadalamadığım digər müsbət keyfiyyətləri bir məktəbdir və illər, əsrlər ötsə də, onun təcrübəsindən bəhrələnmək mümkündür. Onun həyat yolu, mübarizliyi, xalqına bağlılığı, daima ölkəsini düşünməsi, bütün həyatı boyu insanların firavan və sülh şəraitində yaşaması üçün çalışması, sözün əsl mənasında, Heydər Əliyevin vətənpərvərliyinin ən sabit sübutudur.

Bu gün onu anarkən, fərəh hissi ilə deyirik ki, Ulu Öndərin ictimai-siyasi fəaliyyəti Azərbaycanın xalq və dövlətçilik ənənələrinin təcəssümüdür. Tarixdən hər kəsə məlumdur ki, hətta keçmiş sovetlər birliyi zamanı respublikamıza rəhbərlik edən Heydər Əliyev, sovet rəhbərliyinin qısqanclıqla yanaşaraq süni maneələr yaratmasına baxmayaraq, respublikamızın inkişaf etməsi üçün əlindən gələni edirdi, əzmkarlığı sayəsində bütün istiqamətlərdə mühüm yeniliklərə, uğurlara nail ola bilmişdi. Azərbaycanda 60-cı illərdən başlayaraq hər sahədə baş verən müsbət dəyişikliklər, geniş vüsət alan quruculuq işləri və Heydər Əliyevin uzaqgörənliyi sayəsində xalqımızın qazandığı uğurlar təkcə ölkəmizdə deyil, ittifaq miqyasında da daim təqdir edilmiş, nümunə olaraq göstərilmişdir. İllər ötməsinə baxmayaraq, Vətənini sevən hər kəs fəxrlə qeyd edir ki, o vaxt Azərbaycan təkamül dövrünə qədəm qoydu.

Respublikamıza rəhbərlik etməyə başladığı ilk günlərdən qəbul etdiyi qərarlar Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin uzaqgörən, gələcəyə nikbin baxan rəhbər, müdrik dövlət xadimi olduğunun göstəricisidir. Rəhbər vəzifədə çalışdığı bütün zamanlarda çalışırdı ki, azərbaycanlı gənclər bütün sahələrdə, xüsusi ilə də hərbi sahədə uğur qazansınlar. Heydər Əliyev bunun üçün gənclərə lazımi imkanların yaradılması naminə daima çalışmış və tabeçiliyində olanlardan da bu işə ciddi yanaşmağı həmişə tələb etmişdir.

Ulu Öndər Heydər Əliyev hakimiyyətdə olduğu illərdə müstəqil respublikamızda milli zabit kadrlarının hazırlanmasına da böyük diqqət ayırmışdır. Azərbaycan övladlarının hərbi xidmət keçməsi, ali hərbi təhsil alaraq hərbi karyerada yüksəlməsinə müxtəlif yollarla əngəllər törədilir, azərbaycanlı gənclər hərbi sahədə ögey münasibətə məruz qalırdılar. Düzdür, az sayda Sovet ordusunda xidmətə qəbul olunsalar da, azərbaycanlılar yüksək vəzifələrə təyin edilmir, məhz milli mənsubiyyətinə görə baş zabit və ali hərbi rütbələrə çox nadir hallarda layiq görülür, ali dövlət mükafatları ilə təsadüf hallarda təltif olunurdular. Yaradılan bu süni əngəllər və ədalətsiz yanaşma səbəbindən ittifaq miqyasında azərbaycanlı generalları, yüksək vəzifəyə təyin edilən, orden medallarla təltif olunan hərbçiləri barmaqla saymaq mümkün idi. Ali dövlət vəzifəsində çalışmağa başladığı ilk gündən Heydər Əliyev gördüyü işlərlə sübut etdi ki, bu hal onun üçün qəbulolunmazdır. Sovetlər dönəmində bu stereotipi sındırmaq üçün var gücü ilə çalışdı və bütün maneələrə baxmayaraq, Ulu Öndər buna nail oldu. Bu istiqamətdə atdığı ən böyük və qətiyyətli addım isə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılmasıdır.

Dahi şəxsiyyətin böyük çətinliklər hesabına yaratdığı hərbiləşdirilmiş ibtidai məktəbə ilk illərdən başlayaraq qəbul olunanların böyük əksəriyyətinin azərbaycanlı yeniyetmələr və yerli gənclər olmasına nəzarət edirdi.

Bu gün Hərbi liseyin keçdiyi inkişaf yoluna nəzər salarkən tam əminliklə deyə bilərik ki, həmin illərdən başlayaraq məhz Cəmşid Naxçıvanski adına Hərbi Liseydə hərbi təhsildə ilk addımlarını atan gələcəyin zabitləri, illər sonra müstəqillik qazanan Azərbaycanın Silahlı Qüvvələrində uğurla xidmət edərək onlara göstərilən etimadı doğruldurlar.

Hərbi liseydə bütün işləri və tətbiq edilən yenilikləri, təminat və təchizat məsələlərini, təhsil prosesini həmişə nəzarətdə saxlayan Heydər Əliyevin qətiyyətli mövqeyi nəticəsində liseydə yerli yeniyetmələrin təhsil almasına üstünlük verilirdi. Çıxışlarının birində Ulu Öndərin özünün də dediyi kimi, o bu təhsil ocağını doğma övladı qədər sevər, diqqət və qayğı göstərər, mütəmadi olaraq liseyə gələr, burada azərbaycanlı kursantlarla görüşər, onların qayğıları ilə maraqlanar, təhsildə qazandıqları uğurlara sevinərdi. Heydər Əliyevlə o illərdə görüşən, onun xeyir-duası ilə müxtəlif ali hərbi məktəbləri bitirən zabitlər bu gün də ordumuzda xidmət edir, Vətən qarşısında övladlıq borcunu ləyaqətlə yerinə yetirir, Azərbaycan zabiti adını şərəflə qoruyurlar.

Zaman keçdi, Heydər Əliyevin başladığı islahatlar, inkişaf, quruculuq prosesi Dahi Liderin siyasi kursunun davamçısı Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla, planlı şəkildə yüksələn templə davam etdirilir. Azərbaycan dövləti qüdrətləndi, ordumuz gücləndi, torpaqlarımız işğaldan azad edildi, suverenliyimiz tam bərpa edildi, separatizmin kökü kəsildi. Bu gün hamıya əyan oldu ki, Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilmiş torpaqlarımızın tam azad edilməsi və ölkəmizin bütün ərazilərində üçrəngli bayrağımızın vüqarla dalğalanması dövlətimizin son illər yürütdüyü böyük bir strategiyanın nəticəsidir. Bu qətiyyətli strategiya çərçivəsində həyata keçirilən tədbirlərdə ordu quruculuğu prosesi daima ən əsas və prioritet məsələlərdən biri olmuşdur. Məhz bu səbəbdən Dahi Şəxsiyyət Heydər Əliyev yenidən hakimiyyətə gəldiyi ilk gündən ən çox diqqət yetirdiyi istiqamətlərdən biri də məhz vahid komandanlığa tabe olan ordunun yaradılması və iqtisadi gücümüzün yüksəlməsi nəticəsində ölkəmizin hərbi qüdrətinin artırılması oldu.

Heydər Əliyev Azərbaycan Ordusunun yaradılmasına hələ Naxçıvan Ali Məclisinin sədri olduğu dövrdən başlamışdır. Və xoşbəxtəm ki, bu işlərin canlı şahidi olmaq mənə də nəsib olmuşdur.

Həmin dövrdə Naxçıvan Ali Məclisinin sədri olan Heydər Əliyev, Naxçıvandan çıxarılan Sovet ordusu bölmələrinin bütün silah-sursatlarını, hərbi texnika və avadanlıqlarını, onun rəhbərliyi altında yaradılan Müdafiə Komitəsinə təhvil verərək çıxmalarına nail oldu. Məhz bu silah və texnikanın sayəsində Naxçıvanın müdafiəsi uğurla təmin olundu və erməni silahlı birləşmələrinin hücumlarının qarşısı qətiyyətlə alındı. Təbii ki, bütün bu proseslərə Ulu Öndər şəxsən rəhbərlik edirdi. Eyni zamanda, onun qətiyyəti sayəsində, Naxçıvanda fəaliyyət göstərən ayrı-ayrı özünümüdafiə taborlarının və müxtəlif şəxslərin nəzarətində olan silahlı dəstələrin vahid komandanlığa - Naxçıvan Milli Müdafiə Komitəsinə tabe edilməsinə nail olundu. Müdafiə Komitəsi nizami hərbi qurum kimi fəaliyyət göstərdi və sonradan yaradılan Azərbaycan Ordusunun tərkibində fəaliyyətini davam etdirdi. Hesab edirəm ki, dahi rəhbərin bu addımlarını Azərbaycanda vahid komandanlığa tabe olan nizami ordu quruculuğu prosesinin başlanğıcı adlandıra bilərik.

Dahi rəhbərin nəzarəti altında Naxçıvanda yaradılan nizami hərbi bölmələr Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə davam edən ordu quruculuğu prosesi sayəsində böyüdü, inkişaf etdi, gücləndi və bu gün Əlahiddə Ümumqoşun Ordu kimi Vətənimizin müdafiəsi naminə qarşıda duran vəzifələri uğurla yerinə yetirməkdə davam edir. Əlahiddə Ümumqoşun Ordu mənsubları Vətən müharibəsində də uğurla iştirak etdi və yüzlərlə hərbi qulluqçu nümayiş etdirdikləri fədakarlığa, şücaətə görə Azərbaycan Respublikasının Prezidenti tərəfindən orden və medallarla, fəxri adlarla təltif edildilər.

Xalqın dəvəti ilə yenidən hakimiyyətə qayıtdıqdan sonra Heydər Əliyev Naxçıvanda başladığı nizami ordu quruculuğu prosesini artıq bütün respublika səviyyəsində həyata keçirmək üçün daha qətiyyətli addımlar atdı. Azərbaycan Ordusunda həyata keçirilən köklü islahatlar nəticəsində vahid komandanlığa tabe olmayan, ordu rəhbərliyinin nəzarətindən kənarda qalan özünümüdafiə taborları, silahlı dəstələr ləğv edildi və bütün hərbi birliklər Azərbaycan Respublikası Silahlı Qüvvələrinin vahid komandanlığı altında birləşdirildi.

Müstəqil Azərbaycanın hərb tarixində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin rolu hədsiz dərəcədə böyükdür. Ulu Öndərin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanda bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da xüsusi rolu olmuşdur. Bu üzdən də onu müasir Azərbaycan ordusunun banisi adlandırırıq.

Heydər Əliyev hərbçilərə və onların ailə üzvlərinə də xüsusi diqqət və qayğı göstərirdi. Dövlətimizin iqtisadi imkanları genişləndikcə hərbi qulluqçuların xidməti-döyüş fəaliyyətinin, mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində də mühüm addımlar atılırdı. Hərbi qulluqçuların, müharibə veteranlarının sosial durumunun yaxşılaşdırılması məqsədilə aylıq məvaciblərinin müntəzəm olaraq artırılması bu qayğının təzahürü idi. Orduya və ordu mənsublarına, müharibə veteranlarına diqqət və qayğı göstərən Ulu Öndər Heydər Əliyev həmişə belə insanlarla görüşür, onların qayğılarını dinləyir və qaldırılan məsələlərin həll edilməsi üçün lazımi tapşırıqlar verirdi.

Danılmaz bir həqiqətdir ki, son illərdə əldə etdiyimiz ən mühüm qələbə və uğurların ən əsas səbəbi Ümummilli Lider tərəfindən qoyulan proseslərin Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla, planlı olaraq yüksələn templə davam etdirilməsidir. Bu gün yenə də ölkəmizdə ordu quruculuğu məsələsi prioritet istiqamət olaraq qalır. Vətən müharibəsi nəticəsində 30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün təmin olunması, Şanlı Qələbəmizin təmin edilməsi uğurlu ordu quruculuğu prosesinin ən bariz nümunəsidir.

Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi ordu quruculuğu prosesinin ölkəmizin taleyində rolu və əhəmiyyətindən danışarkən iki məsələni xüsusi qeyd etmək istəyirəm. Birinci fakt - təcrübə nəticəsində artan peşəkarlıqdır. Məhz Dahi Liderin başladığı və Müzəffər Ali Baş Komandanımızın uğurla davam etdirdiyi islahatlar nəticəsində qüdrətlənən ordumuz Aprel döyüşlərində, Günnüt əməliyyatında, Tovuz döyüşlərində, Vətən müharibəsində düşməni məğlub edərək, ona layiqli cavab verərək qələbələr qazanmaqla, Zəfərlər salnaməsi yazmaqla yanaşı, böyük döyüş təcrübəsi də qazandı. Qazanılan bu təcrübə və nail olunmuş peşəkarlıq Vətən müharibəsindən sonra həyata keçirilən "Fərrux", "Qisas", həmçinin 2023-cü ilin 19-20 sentyabrında baş tutan antiterror tədbirləri və digər uğurlu əməliyyatlarda özünü tam mənada büruzə verdi.

Diqqət yetirmək istədiyim ikinci məqam isə ordumuzun gücü-qüdrətidir. Bu gün Azərbaycan Ordusu Vətənimizə yönələn istənilən təxribatın qarşısını almağa, süverenliyimizə, ərazi bütövlüyümüzə göz dikən düşməni məğlub edən nəhəng bir qüvvəyə çevrilmişdir. Düzgün aparılan ordu quruculuğu siyasəti nəticəsində Azərbaycan Ordusu ərazi bütövlüyümüzü təmin etməyə və qorumağa qadir ordudur.

Bu gün fəxrlə deyirik ki, Heydər Əliyev ideyalarına sadiqlik ölkəmizi regionda, eləcə də dünyada söz sahibi olan dövlətə çevirməklə yanaşı, ordumuzu regionun ən qüdrətli güc strukturunadək və dünyanın qabaqcıl orduları sırasında özünə layiqli yer tutmuş, Zəfər qazanan bir orduyadək yüksəltmişdir.

Məhz bunun nəticəsidir ki, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən daima yenilənən, inkişaf etdirilən, qüdrətlənən müasir Azərbaycan Ordusu Hərbi Anda sadiq qalaraq, Ali Baş Komandanın istənilən əmrini yerinə yetirməyə hazırdır.

Ulu Öndər Heydər Əliyev haqqında daima xoş sözlər deyilib, maraqlı məqalələr yazılıb. Əminəm ki, həmişə də yazılacaqdır. Dahi Rəhbər xalqımızın həyatında və respublikamızın bütün guşələrində elə izlər qoyub, elə bir ömür yaşayıb, elə bir mübarizə yolu keçib, Vətəni üçün elə böyük işlər görüb ki, ona daima hörmət və ehtiram ifadə ediləcəkdir. Sözün əsl mənasında, Heydər Əliyev irsi tükənməz xəzinə, xidmətləri nəhəng, xatirəsi unudulmazdır.

Ulu Öndərin 101-ci ildönümündə onu dərin ehtiramla xatırlayan cənab İlham Əliyevin fikirləri ilə əminliklə deyə bilərik ki, nə qədər müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı yaşayır, dahi şəxsiyyət Heydər Əliyevin xatirəsi qəlbimizdə və tarixdə yaşayacaq, ideyaları ölməyəcəkdir.

**SÖZARDI**: Heydər Əliyevin həyat yoluna, qurub-yaratdıqlarına, mübarizə yoluna, dövlət vəzifələrində və nəhayət, müstəqil Azərbaycan Respublikasının Prezidenti olaraq çalışdığı, fədakarlıq göstərdiyi illərə, yəni, çağdaş Azərbaycanın son 101 illik dövrünə səyahət etdikdə səmimiyyətlə, qürur hissi ilə deyə bilərik ki, həmin dövr Dahi Liderin yaratdığı şanlı tarix, özü isə Tarixin Lideridir.

**İsa İSMAYILOV**
**hərbi jurnalist, ehtiyatda olan zabit**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** 15 İyun müstəqillik tariximizin mühüm mərhələsi, Milli Qurtuluş Günüdür.

**Suallar:**

**1. Müstəqillik tariximizin mühüm mərhələsi.**

**2. 15 İyun Milli Qurtuluş Günüdür.**

### Müstəqillik tariximizin mühüm mərhələsi

XX əsrin 90-cı illərinin əvvəllərində ən böyük arzusunu - dövlət müstəqilliyinin bərpasını reallaşdırmaq üçün Tanrı xalqımıza şans verdi. Yetmiş il dünyanı lərzəyə salan bir imperiyanın tərkibindən çıxaraq öz müstəqilliyinə nail olmaq isə elə də asan başa gəlmədi. Ölkəmizi müstəqilliyə aparan yol 20 Yanvar faciəsindən keçdi. SSRİ rəhbərliyi xalqın azadlıq arzusunu boğmaq üçün, hətta ordunun gücündən istifadə edərək qan tökməkdən belə çəkinməsə də, öz istəyinə çata bilmədi - Azərbaycan dövlət müstəqilliyini bərpa etdi.

1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyi bərpa edilən Azərbaycan Respublikasına qarşı bir tərəfdən Ermənistanın əsassız ərazi iddiaları ilə bir neçə il əvvəl başladığı hərbi təcavüz davam edir, bu respublikada tarixi torpaqlarında yaşayan azərbaycanlılar qovularaq qaçqına çevrilir, təcavüzün gedişində ərazilərimiz bir-birinin ardınca işğal edilir, tarixi mənsubiyyətini itirmək üçün yaşayış məntəqələri yandırılır, əhali məcburi köçkün edilir, digər tərəfdən isə hakimiyyət uğrunda müxtəlif qruplaşmalar arasında amansız mübarizə gedirdi.

1992-ci ilin mayında Azərbaycan Xalq Cəbhəsi silahlı yolla hakimiyyəti devirdi. Ölkədə AXC-Müsavat iqtidarı quruldu. Lakin yeni hakimiyyət Azərbaycan Respublikasının problemlərini nəinki həll edə bilmədi, əksinə, onları daha da dərinləşdirdi. İdarəçilikdə səriştəsizlik, problemləri yanlış qoyma və həllinə primitiv, məhdud yanaşma, idarəçilik bacarığının olmaması, hakimiyyətin qanunverici, icraedici və məhkəmə qanadları arasında qarşıdurma ölkəni böhrana gətirib çıxardı. Dövlət müstəqilliyinin bərpasından ötən müddət ərzində bir neçə dəfə hökumət dəyişmişdi. Yürütdüyü siyasətlə xalqdan ayrı düşmüş hakimiyyət ona bəslənən ümidləri doğrulda bilmirdi. Cəbhədəki uğursuzluqlar bir-birinin ardınca gəlirdi. Hakimiyyət mövcud problemləri həll etmək iqtidarında deyildi. Ölkənin şimalında və cənubunda xaricdən qızışdırılan separatçılıq hərəkətləri Azərbaycan Respublikasını didib-parçalayır, milləti və ölkəni dağıdan, dövlətin varlığını təhdid edən qondarma qurumlar yaradılırdı. Tarixən tək millət olmuş Azərbaycan dövləti məhvə doğru gedirdi. Bu azmış kimi, 1993-cü il iyunun 4-də Gəncədə polkovnik Surət Hüseynovun rəhbərliyi altında hərbi qiyam baş verdi. Hərbçilər Bakıya doğru yürüş etdilər. Azərbaycan öz tarixində o zamanadək görünməmiş bir faciənin - vətəndaş müharibəsi ərəfəsində idi. Bəlkə də Azərbaycan tarixində millət və cəmiyyət heç bir zaman bu qədər qütbləşməmişdi.

Beynəlxalq aləmdə Azərbaycan dövlətinin səsi eşidilmirdi. Təşkilati, dövlət idarəçilik bacarığına və qabiliyyətinə malik olmayan, xalqın dəstəyini itirmiş hakimiyyət beynəlxalq aləmdə ölkəni təcridçiliyə gətirmişdi. Diplomatiya dostlar əvəzinə daha çox düşmənlər qazandırırdı. Qonşularla münasibətlər gərgin idi. Ölkənin maraqları etibarlı qoruna bilmirdi.

Azərbaycan Respublikası dəhşətli bir vəziyyətə düşmüşdü. Bu, Azərbaycanın iqtisadi, siyasi, hərbi, mədəni, humanitar və psixoloji həyatını tamamilə bürümüş ağır ümumi böhran idi. Azərbaycan vətəndaşının yaranmış şəraitdən çıxmağa, sabaha ümidi yox idi. Müstəqil dövlət sanki kağız üzərində bəyanat xarakterli idi. Bərpa edilmiş dövləti təmsil edən hakimiyyət real olaraq hər hansı bir məsələni həll etmək gücündə deyildi. Xalq nicat yolu arayırdı. Belə şəraitdə vəzifədə olanlar bir-birinin ardınca istefa verərək məsuliyyətdən yaxa qurtarmaq yolunu tutdular. Bəziləri vəzifələrini "dondurdular", bəziləri isə qaçıb gizləndilər. Xalq bir suala cavab axtarırdı: Nə etməli? Ölkəni ağır şəraitdən kim və necə çıxara bilər? Belə bir tarixi şəxsiyyət, lider varmı?

O zaman hakimiyyətdə olanların səriştəsizliyi, bacarıqsızlığı nəticəsində 1993-cü ilin iyunun əvvəllərində respublikada yaranmış gərgin ictimai-siyasi hadisələr kulminasiya nöqtəsinə çatdı, silahlı qarşıdurmalar fonunda hakimiyyət böhranı, siyasi böhran bütün ölkəni cənginə aldı. Azərbaycan öz dövlət müstəqilliyini bir əsrdə ikinci dəfə itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Çoxlu mürəkkəb suallar qarşısında qalan və xilaskar axtarışında olan Azərbaycan xalqı uzun illər boyu yaxşı tanıdığı, dövlət idarəçilik bacarığına və liderlik keyfiyyətinə inandığı, həmin vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olan Dahi Lider Heydər Əliyevə üz tutdu. Xalqın inamına görə, yalnız Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətini məhv olmaqdan, ölkəni parçalanmaqdan, dağılmaqdan xilas edə, xalqı mənəvi-psixoloji böhrandan çıxara, Ermənistanın davam edən işğalını dayandıra, ölkəni fəlakətə salmış xarici siyasət fəaliyyətini yeni əsaslar üzərində qura bilərdi. Dahi şəxsiyyət xalqın çağırışlarına cavab verdi və 1993-cü il iyunun 15-də ikinci dəfə siyasi hakimiyyətə qayıtmaqla respublikanı xaosdan, anarxiyadan, parçalanmaqdan, yox olmaqdan xilas etdi. Bu hadisə Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş Günü kimi əbədi həkk olundu. Ulu Öndərin hakimiyyətə gəlməsi ilə müstəqil Azərbaycan dövlətinin və xalqının tarixində yeni bir dövr başladı. Bu, dövlətin və dövlətçiliyin xilası və möhkəm əsaslarda qurulması dövrü idi.

### 15 İyun Milli Qurtuluş Günüdür

Xalqın təkidi ilə Azərbaycan xalqının Ümummilli Liderinin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi inkişaf və siyasi sabitlik müstəqilliyimizin möhkəmləndirilməsində, sivil dünyaya qovuşmasında, beynəlxalq aləmə inteqrasiyasında və müasir cəmiyyətin qurulmasında həlledici rol oynadı. Bakıda hələ heç bir vəzifə tutmayan, millətin inam yeri olaraq milli liderlik missiyası daşıyan Ulu Öndər Heydər Əliyev şəraitlə yerində tanış olmaq məqsədilə təcili olaraq qiyamın baş verdiyi Gəncə şəhərinə getdi. Ağır bir şəraitdə iyunun 15-də Azərbaycan parlamentinin sədri seçildi. Bu qayıdış sadəcə parlament sədri vəzifəsini tutmaq demək deyildi. Bu dönüş Azərbaycan xalqı və dövlətinin xilası, gələcək inkişafını müəyyənləşdirmək üçün olan əzablarla dolu ağır bir dönüş idi!

Hakimiyyətə yenidən qayıdan Ulu Öndər zəif və dağılmış ordu ilə müharibə aparan ermənilərlə yanaşı, silahlı qüvvələrin bir-birinə qarşı döyüşdüyü dağılmış Azərbaycan dövlətini yenidən ayağa qaldırmaq üçün hərəkətə keçdi. Dahi Lider bu ağır vəzifələri bir-bir yox, eyni vaxtda həyata keçirməklə, Azərbaycan dövlətini xilas edə bildi: dövlətin əlində olması gərəkərkən silahları ələ keçirmiş ölkədə kriminogen şərait yaradan ayrı-ayrı silahlı birləşmələri tərk-silah edilərək qanun qarşısına çıxartdı; xalqla hakimiyyət arasında uçurumu, inamsızlığı aradan qaldırdı; insanların sakit və təhlükəsiz yaşayışını təmin etdi; ağır sosial-iqtisadi şəraitdə yaşayan xalqı inkişafa aparmaq və xalqın mənəvi-psixoloji ruhunu yüksəldərək dövlətin gücünü yaratmaq üçün addımlar atdı; köhnə sosializm sisteminin qalıqlarından imtina edərək uğurlu islahatlar apardı, beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun yüksəldilməsi sahəsində böyük işlər gördü; neft müqavilələri imzalayaraq kiçik Azərbaycanı nəhəng ölkələrin hesablaşdığı ölkəyə çevirdi; ordunu nizama saldı; Ermənistan silahlı qüvvələri tərəfindən işğala məruz qalmış bir çox kəndlərimizi düşməndən təmizlədi və dövlətin gələcəyini qurmaq üçün mövcud vəziyyəti nəzərə alaraq, Qarabağda atəşkəs sazişinə razılıq verərək, Ermənistanı dalan ölkəyə çevirəcək strategiyanı hazırladı.

Hakimiyyətə gəlməsi ilə Azərbaycan dövlətini dağılmaqdan, vətəndaş müharibəsindən xilas edən Ulu Öndər Heydər Əliyev indiki Azərbaycan dövlətinin qurucusu və memarı oldu. O, Azərbaycan Respublikasının eksperimentlər ölkəsinə çevrilməsi praktikasına son qoydu. Ulu Öndərin müdrik daxili və xarici siyasəti nəticəsində hüquqi-demokratik dövlət quruculuğu, Milli Ordunun formalaşdırılması istiqamətlərində əsaslı addımlar atıldı. Azərbaycan dövləti 1994-cü ilin mayın əvvəllərində NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qatıldı. Həmin ayda Ermənistan ilə Azərbaycan arasında atəşkəs elan edildi.

1994-cü il sentyabrın 20-də dünyanın bir sıra böyük ölkələrini təmsil edən transmilli şirkətlərlə "Əsrin müqaviləsi" imzalandı. Ulu Öndər Heydər Əliyevin qətiyyəti özünü "Əsrin müqaviləsi" imzalandıqdan sonra baş verən dövlət çevrilişi cəhdlərinin qarşısının alınmasında aydın şəkildə göstərdi. 1994-cü ilin oktyabr və 1995-ci ilin mart aylarında baş verən dövlət çevrilişi cəhdləri məhz Ulu Öndərin yenilməz qətiyyəti, siyasi bacarığı ilə iflasa uğradıldı. Bununla da silahlı yolla hakimiyyətə gəlmək kimi acı təcrübəyə son qoyuldu. Dövlət çevrilişlərinin qarşısı alındıqdan sonra Azərbaycan dövlətinə investisiya axını başladı. Müxtəlif neft boru kəmərləri işə salındı və ya təməli atıldı. Azərbaycanın xarici ölkələrdən enerji asılılığına son verildi. Bakı-Novorossiysk, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft boru, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri layihələrinin əsası qoyuldu. Bu boru kəmərləri layihələri təkcə iqtisadi deyil, eyni zamanda, Azərbaycan dövlətinin beynəlxalq mövqelərini möhkəmləndirən, müstəqilliyi gücləndirən, xalqın maddi rifah halının və mənəvi-psixoloji ruhunun yüksəldilməsinə kömək edən layihələr oldu.

Ulu Öndər Heydər Əliyevin səyləri ilə Böyük İpək yolunun bərpası həyata keçirildi. Şərqlə Qərbi birləşdirən, təkcə iqtisadi-ticarət deyil, eyni zamanda, böyük siyasi və strateji əhəmiyyət daşıyan TRASEKA proqramı reallaşdırıldı. Azərbaycan dövləti dünya ölkələrinin ticarətini əlaqələndirən qovşaq bir ölkə oldu. Azərbaycanı dünyanın mərkəzlərindən birinə çevirəcək Bakı-Tbilisi-Qars dəmir yolunun layihəsi ideyası və onun həyata keçirilməsi üçün hazırlıqlara başlanılması da müstəsna tarixi əhəmiyyət daşıyan hadisə idi. Azərbaycanın beynəlxalq mövqeləri möhkəmləndi. Avropa ilə Asiyanın qovşağında yerləşən Azərbaycanın əhəmiyyəti artdı, Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başladı.

1995-ci il noyabrın 12-də ümumi seçkilər yolu ilə Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi və müstəqil Azərbaycan Respublikası parlamentinə seçkilər keçirildi. Dünyanın ən demokratik konstitusiyalarından biri olan ana qanunumuzda insan hüquq və azadlıqları ilə bağlı müddəalarla yanaşı, Azərbaycan xalqı və dövlətinin gələcəyi ilə bağlı olan fundamental məsələlər təsbit edildi. Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi üstündə gedən mübahisələr dövründə ədalətə və artıq mövcud olan praktikaya dayanaraq Xəzərin Azərbaycan sektorunun ölkə ərazisi olmasının təsbit edilməsi və ölkə ərazisinin yalnız ümumxalq referendumu yolu ilə dəyişdirilməsinin mümkün olması Ermənistanın təcavüzünün davam etdiyi bir şəraitdə tarixi əhəmiyyət daşıyan bir addım idi. Bununla müstəqil Azərbaycan dövlətinin ilk Konstitusiyasının memarı olan Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan Respublikası dövlətinin gələcəyini müəyyənləşdirən bir dövlət xadimi oldu.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi və yürütdüyü siyasət nəticəsində Azərbaycanın müstəqillik tarixində ilk dəfə sabitsizlikdən, anarxiyadan sabitliyə, qarışıqlıqdan demokratiyaya, ağır həyat şəraitindən firavan bir yaşayışa keçid baş verdi. Azərbaycan xalqının sabaha və özünə inamı artdı. Ən başlıcası, Azərbaycanda təməlləri möhkəm olan, güclü dövlətçilik ənənəsinin, dərin dövlətin əsası qoyuldu. Ulu Öndər milli ideyaları milli ideologiya olaraq sistemləşdirdi və formalaşdırdı. Bütün ölkə vətəndaşlarını birləşdirən azərbaycançılıq ideologiyasının əsaslarını işləyib hazırlayaraq həyata keçirdi, etnik millətçiliyə dayanan yanaşmadan imtina edərək, bütün vətəndaşların şəxsiyyət vərəqəsində "Azərbaycan Respublikasının vətəndaşı" yazmağın təşəbbüskarı və onu reallaşdıran dövlət xadimi olaraq, siyasi milliyyətçiliyə, dövlət-millət anlayışına keçidin banisi oldu. Bu, Azərbaycan tarixində görünməmiş bir fəaliyyət və bir ilk idi.

Azərbaycan dövlətinin hərb sistemi quruldu. Ölkəni xarici təcavüzdən qorumağa qadir olan güclü ordu formalaşdırıldı. Atəşkəs dövründə Azərbaycan Ordusu döyüş hazırlığını artırmaqla yanaşı, müasir silah və sursatla da təchiz olunurdu. Şübhəsiz ki, Ulu Öndərin apardığı müdrik siiyasət nəticəsində müstəqilliyimiz qorunub, dövlətlə xalqın birliyi təmin edilib. Bu gün Azərbaycan qalib ölkə olaraq dünyadakı nüfuzunu daha da artırıbsa, 44 günlük Vətən müharibəsində 30 ilə yaxın Ermənistanın işğalına məruz qalan torpaqlarını düşmən tapdağından azad edibsə, bu uğurların təməlində Ulu Öndər Heydər Əliyev məktəbinin, uzaqgörənliyinin əsasları dayanmaqdadır. Bu əsaslar Azərbaycanın ötən onilliklərdə güclənməsinə, iqtisadi, diplomatik, hərbi sahədə irəliləməsinə şərait yaratdı və əlbəttə ki, Ulu Öndərin siyasət mücəssəməsi məhz Zəfər tariximizə hesablanmış uzun, çətin bir yolun keçidi idi.

"Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur" deyən Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə yenidən qayıdışından sonra əsas hədəfi torpaqlarımızı azad edə biləcək gücdə dövlətin yaradılması oldu. Şuşanın azad olunduğu xəbərini xalqa çatdıran Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev bildirmişdir ki, "Xoşbəxtəm ki, ata vəsiyyətini yerinə yetirdim".

Bu, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin məğlubiyyəti dəyişdirəcək strategiyası, bu strategiyanı uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin Zəfərə aparan siyasətinin tarixi bəhrəsidir. Bu gün torpaqlarımız azad edildiyi üçün Ulu Öndər Heydər Əliyevin ruhu şaddır, çünki onun ən böyük amalı torpaqları işğaldan azad edilmiş güclü Azərbaycan dövləti idi və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev buna nail oldu. Ulu Öndər Heydər Əliyev siyasəti, strategiyası, dövlətçilik fəlsəfəsi dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qarşısında yeni üfüqlər, hədəflər açır. Biz azərbaycançılıq məfkurəsini rəhbər tutaraq bu hədəflərə doğru inamla irəliləyirik.

Dünyada elə bir xalq tapmaq olmaz ki, milli tarixinin ən mürəkkəb mərhələsində müstəsna rol oynamış, dövlətçilik ənənələrini formalaşdırmış milli lideri olmasın. Çünki liderlərin mənalı və zəngin həyat səhifələrini vərəqləyərkən, addımlarının təhlilini apararkən, onların mənsub olduğu xalqların da dövlətçilik ənənələri, tarixi, inkişaf səviyyəsi barədə aydın təsəvvür yaranır. Bu dahi şəxsiyyətlər yüksək mənəvi aləmləri ilə, ali bəşəri və milli ideallara, ümummilli mənafelərə ürəkdən bağlılıqları ilə milyonların qəlbində özləri üçün möhtəşəm abidə ucaldırlar. Bu mənada xoşbəxt xalqıq ki, bizim də əbədiyyət abidəmiz var - Ulu Öndər Heydər Əliyev!

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Vətənpərvərlik tədbirləri davam etdirilir





Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi tərəfindən vətənpərvərlik mövzusunda keçirilən rəngarəng tədbirləri hərbi qulluqçular rəğbətlə qarşılayırlar. Əsas məqsəd vətənpərvərlik ruhunun həmişə yüksək olmasına, müqəddəs borcların şərəflə yerinə yetirən gənc əsgərlərin ölkəmizin layiqli, fəal qurucu vətəndaşları kimi formalaşmalarına kömək etməkdir.

Vətənpərvərlik tədbirlərindən biri Bakı şəhərindəki 216 saylı tam orta məktəbdə Hərbi Hava Qüvvələrinin şəxsi heyəti və onların ailə üzvləri üçün təşkil olundu.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü, müstəqilliyi, suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət Himni səsləndirildi.

Sonra mərkəzin əməkdaşları müasir Azərbaycan dövlətinin qurucusu, böyük tarixi şəxsiyyət, Ulu Öndər Heydər Əliyevin Vətənimiz, xalqımız qarşısındakı əvəzsiz xidmətləri, dövlətçilik fəaliyyəti haqqında ətraflı məlumat verdilər. Qeyd olundu ki, Azərbaycan dövlətinin müstəqilliyinin əbədi və dönməz olması üçün Ulu Öndərin əvəzsiz xidmətlərini, yorulmaz fəaliyyətini xalqımız həmişə yüksək qiymətləndirir. Dahi şəxsiyyətin müdrikliyi sayəsində Azərbaycan dünya miqyasında tanındı, yeni inkişaf və tərəqqi yolunu seçdi. Dövlətimizin və müstəqilliyimizin



dayağı olan güclü, qüdrətli ordunu yaratdı. Dünya miqyasında tanınan Ulu Öndər Heydər Əliyev böyük siyasətçi, görkəmli dövlət xadimi idi.

Azərbaycan dövlətinin əldə etdiyi tarixi uğurların, qələbələrin təməli də məhz Ulu Öndər tərəfindən qoyulmuşdu. Böyük siyasətin bəhrəsidir ki, ölkəmizin ərazi bütövlüyü, suverenliyi təmin olundu.

Tarixi Zəfərin qazanılmasında Hərbi Hava Qüvvələrinin şəxsi heyəti də yüksək döyüş qabiliyyəti, qələbə əzmi, böyük rəşadət nümayiş etdirdi, qarşıya qoyulan döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirdi. Onların Vətən qarşısındakı xidmətləri dövlətimiz və xalqımız tərəfindən həmişə yüksək qiymətləndirilir. Vətən müharibəsində şəxsi igidlik, şücaət göstərənlər orden və medallara layiq görüldülər. Şəxsi heyət xidmətlərini müharibədən sonra da fədakarlıqla davam etdirir.



Tədbirdə hərbi qulluqçuların övladları üçün bilik yarışları, müxtəlif oyunlar təşkil olundu. Şagirdlər tariximizə, mədəniyyətimizə aid sualları böyük həvəslə cavablandırdılar. Bilik yarışlarında fərqlənən şagirdlərə qiymətli hədiyyələr təqdim olundu. Hərbi Hava Qüvvələrinin Vətən müharibəsində göstərdikləri rəşadətləri əks etdirən sənədli film rəğbətlə qarşılandı. "Əsgərə məktub" layihəsi haqqında tədbir iştirakçılarına ətraflı məlumat verildi. Bildirildi ki, layihənin məqsədi cəmiyyətlə ordu arasında əlaqələri möhkəmləndirmək, şəxsi heyətin vətənpərvərlik ruhunun daha da yüksəldilməsinə nail olmaqdır. Tədbir iştirakçıları Vətənin keşiyində dayanan əsgərlərə qürur dolu məktublar ünvanladılar.

Mərkəzin "Vətən uğrunda" ansamblının vətənpərvərlik ruhunda hazırladığı konsert proqramı alqışlarla qarşılandı.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

*Redaksiyamızın poçtundan*

# Mən komandirimlə fəxr edirəm

On bir aydır hərbi xidmətdəyəm. Şabranlıyam. Laçının Qartaloylaqlı yüksəkliklərində xidmət edirəm. Uca zirvələrdən Vətən torpağını qoruya-qoruya seyr etmək, seyr edə-edə qorumaq çox möhtəşəmdir. Hərbi xidmətin özünəməxsus çətinlikləri də var. Uşaqlıqdan qayğısız böyümüşəm. İndi relyefə görə çətinliklərlə də əhatələnmişəm: soyuq, qar, çovğun ilk günlər hövsələmi daraltsa da, getdikcə bunlara alışdım. Topçuyam, mən də döyüşə hər an hazıram. Vətənə sevgim mənə ilavə güc verir, dözüm verir. Anamın sözləri yadımdan çıxmır: "Ordu kişilik məktəbidir, get, mətinləş, oğlum. Bizi qoru". Məni bu sözlərlə yola salmışdı... Kövrəlsə də, qürurla...

...Düşmən səngərləri ilə üz-üzəyik, aramızda çox az məsafə var. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin əsgərlərə



xüsusi qayğısı, hərbçiləri ordunun qızıl fondu bilməsi bizi daha da ruhlandırır. Düşmən hər an iğtişaş törədə də bilər. Vətən torpağı bir də yaralanmasın deyə biz ayıq-sayıq dayanmışıq.

Laçın respublikamızın dəniz səviyyəsindən xeyli yüksəklikdə yerləşən səfalı ərazisidir. Qışı sərt keçsə də, yayda buralar könül açır. Hərbi xidmətdə yaxın dostlar tapmışam. Burada əsgərin ən yaxın könül adamı onun komandiridir. Komandirimiz polkovnik-leytenant Firdovsi Bəyovu özümə ən yaxın dost bilirəm. Təbii ki, bütün qaydaları, komandir-əsgər münasibətlərini aşmamaq şərti ilə. Komandirim sadə insandır, əsgəri səbirlə dinləyir, qayğısına qalır. Hərbi hissədə kiçik komandirlər də onun kimi olmağı özünə mənəvi borc bilirlər. Ürəyimdən keçənləri yazmaq haqqında divizion komandirimiz - mayor Vüsal Səmədovla məsləhətləşdim. Etiraz etmədi.

Mayor Vüsal Səmədov 1988-ci ildə Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində anadan olub. Biləsuvar rayonunun Səmədabad kəndində orta məktəbi bitirib. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini (indiki Heydər Əliyev adına Hərbi İnstitut) bitirib. 2016-cı ilin Aprel döyüşlərinin iştirakçısı olub.

Mən komandirimlə fəxr edirəm. Ordumuzda belə zabitlər yüzlərlədir - ordumuzla hamımız fəxr edirik.

**Əsgər**
**Murad ƏFƏNDİYEV**
**"N" hərbi hissəsi**

# İdman

## Bakıda budo döyüş növü üzrə Açıq Respublika Turniri keçirilib



Bakıda budo döyüş növü üzrə Açıq Respublika Turniri keçirilib.

Yarışda Sumqayıt, Göyçay, Ağdaş, Ağdam, Goranboy, Qusar, Tovuz, Şəmkir, Füzuli, Şuşa, İmişli, Astara, Lerik, Yevlax, Nizami rayonundan, eləcə də klublardan 300-dən artıq idmançılar iştirak ediblər.

İştirakçılar Free Kontakt, Full Kontakt, Submission, B-1, F-1 növləri üzrə mübarizə aparıblar. Sonda qaliblərə diplomlar və bel kəmərləri təqdim edilib.

## Azərbaycanın tanınmış güləşçisi karyerasını başa vurub



Azərbaycanın yunan-Roma güləşçisi Taleh Məmmədov idmançı karyerasını başa vurub.

O, bundan sonra fəaliyyətini məşqçi kimi davam etdirəcək.

Qeyd edək ki, Taleh Məmmədov Avropa ikincisi və dünya üçüncüsüdür.

## Azərbaycan güləşçiləri beynəlxalq turnirdə 3 medal qazanıblar



Azərbaycanın yunan-Roma güləşçiləri Rusiyanın Kaspiysk şəhərində SSRİ-nin tanınmış idmançısı Surakat Asiyatilovun xatirəsinə həsr edilmiş 20 yaşadək yeniyetmələr arasında beynəlxalq turnirdə uğurla çıxış ediblər.

Yarışda milli komandanın 3 üzvü fəxri kürsüyə qalxıb.

Yığmanın heyətində yalnız finalda məğlub olan Təvəkkül Həziyev (67 kq) gümüş medalın sahibi olub. Tural Əhmədov (60 kq) və Cocu Səmədov (87 kq) isə bürünc mükafata yiyələniblər.

Turnirdə 7 ölkədən ümumilikdə 190 güləşçi mübarizə aparıb.

## Azərbaycanı dünya çempionatında 11 cüdoçu təmsil edəcək

Cüdo üzrə Azərbaycan millisinin Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə mayın 19-23-də keçiriləcək dünya çempionatı üçün heyəti açıqlanıb.

Yarışda ölkəni qadınlar və kişilər arasında 8 çəki dərəcəsi üzrə ümumilikdə 11 cüdoçu təmsil edəcək.

Qadınların yarışında Leyla Əliyeva (48 kq), Açelya Toprak (57 kq), kişilərin mübarizəsində isə Balabəy Ağayev, Turan Bayramov (hər ikisi 60 kq), Kamran Süleymanov, Yaşar Nəcəfov (hər ikisi 66 kq), Hidayət Heydərov (73 kq), Zelim Tçkayev (81 kq), Elcan Hacıyev, Vüqar Talıbov (hər ikisi 90 kq) və Zelim Kotsoyev (100 kq) qüvvəsini sınayacaq.

Gültac Məmmədəliyeva və Aydan Vəliyeva (hər ikisi 52 kq) zədəli olduqlarına görə yığmanın tibbi heyətinin qərarına əsasən turnirə qatılmayacaqlar.

**AZƏRTAC-ın**
**materialları əsasında**

Baş leytenant Tağıyev Elvin İbad oğluna məxsus MN № 0066144 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Baş leytenant Vətəndust Elvin Anar oğluna məxsus MN № 0064510 nömrəli zabitin şəxsi vəsiqəsi yararsız hala düşdüyü üçün etibarsız sayılır.

Leytenant Hüseynov Kamran Muxtar oğluna məxsus MN № 0064117 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| mayor Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Rəşid HÜSEYNOV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 273 Nüsxə 4650 |